AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

| | |
|---|---|
| Aktın növü | AZƏRBAYCAN RESPUBLİKASI NƏQLİYYAT, RABİTƏ VƏ YÜKSƏK TEXNOLOGİYALAR NAZİRLİYİNİN KOLLEGİYASININ QƏRARI |
| Qəbul edildiyi tarix | 26.12.2018 |
| Qeydiyyat nömrəsi | 005 |
| Adı | Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin 2016-cı il 6 fevral tarixli 0001 nömrəli qərarı ilə təsdiq edilmiş “Poçt rabitəsi xidmətlərinin göstərilməsi Qaydaları”nda dəyişiklik edilməsi barədə |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | 01.01.2019 |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | 180.120.000 |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | 15201812260005 |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | 11.01.2019 |

“Notariat haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1223-VQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 avqust tarixli 230 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi haqqında Əsasnamə”nin 5.11.1-ci yarımbəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Kollegiyası

**qərara alır:**

1. Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin 2016-cı il 6 fevral tarixli 0001 nömrəli qərarı ilə təsdiq edilmiş “Poçt rabitəsi xidmətlərinin göstərilməsi Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.1-ci bənddə “Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 19 iyun tarixli 185 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi haqqında Əsasnamə”nin 3.1.36-cı” sözləri “Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi haqqında Əsasnamə”nin 3.0.55-ci” sözləri ilə əvəz edilsin;

1.2. 2.12-ci və 9.41-ci bəndlərdə “və” sözü vergül işarəsi ilə əvəz edilsin, ““Məhkəmə bildirişi”” sözlərindən sonra “və “İcra qeydi bildirişi”” sözləri əlavə edilsin;

1.3. 7.11-ci bənd üzrə:

1.3.1. birinci cümlədə “Məhkəmə” sözündən sonra “və icra qeydi” sözləri əlavə edilsin;

1.3.2. ikinci cümlə aşağıdakı redaksiyada verilsin:

“Məhkəmə və ya icra qeydi bildirişləri göndərilən sifarişli məktubların üzərində göndərici tərəfindən “Məhkəmə bildirişi. Sifarişli xəbərnamə ilə” və ya “İcra qeydi bildirişi. Sifarişli xəbərnamə ilə” qeydi edilir.”;

1.4. 9.15-ci bənddə, 9.24-cü bəndin birinci cümləsində, 11.7.1-ci və 11.7.2-ci yarımbəndlərdə ““Məhkəmə bildirişi”” sözlərindən sonra “və “İcra qeydi bildirişi”” sözləri əlavə edilsin;

1.5. 9.25-ci bəndin birinci cümləsində, 9.52.1-ci, 10.1.2-ci və 10.2.2-ci yarımbəndlərdə ““Məhkəmə bildirişi. Sifarişli xəbərnamə ilə”” sözlərindən sonra “və “İcra qeydi bildirişi. Sifarişli xəbərnamə ilə”” sözləri əlavə edilsin;

1.6. 9.27-ci və 9.42-ci bəndlərdə ““Məhkəmə bildirişi”” sözlərindən sonra “və ya “İcra qeydi bildirişi”” sözləri əlavə edilsin.

2. Hüquq şöbəsinə tapşırılsın ki, bu qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət

Reyestrinə daxil edilməsi üçün 3 (üç) gün müddətində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilməsini təmin etsin.

3. Bu qərar 2019-cu il yanvarın 1-dən qüvvəyə minir.

**Kollegiyanın sədri,**
**Azərbaycan Respublikasının nəqliyyat,**
**rabitə və yüksək texnologiyalar naziri** **Ramin Quluzadə**